ARTİ / YANVAR / 2022

ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

# Beynəlxalq Təhsil İcmalı



## İçindəkilər

**02.** İnklüziv ibtidai və orta təhsil sistemi üçün yüksək keyfiyyətli qarışıq təlim yanaşmalarına dair Avropa İttifaqı Şurasının tövsiyələri

**04.** Avropa Təhsil Fondu tərəfindən peşə təhsili müəssisələrində çalışan rəhbər və pedaqoji işçilərlə keçirilmiş sorğunun nəticələri

**08.** Valideynlərin qiymətləndirmə haqqında təəssüratları: Finlandiyanın əsas təhsil sistemindən əldə edilən konseptual fəaliyyət və nəticələr

**10.** Qlobal təhsil böhranının vəziyyəti: Bərpa prosesinə doğru gedən yol

# İnklüziv ibtidai və orta təhsil sistemi üçün yüksək keyfiyyətli qarışıq təlim yanaşmalarına dair Avropa İttifaqı Şurasının tövsiyələri

COVİD-19 pandemiyası qlobal miqyasda Avropa İttifaqı da daxil olmaqla bütün ölkələrin təhsil müəssisələrinə əhəmiyyətli dərəcədə təsir etmişdir. Bir çox üzv dövlətlər distant təhsil prosesinin həlli yollarını taparaq tədrisin davamlılığını təmin edə bildilər. Avropa İttifaqı Şurasının tövsiyələri üzv dövlətləri bərabər imkanlarla təmin etməklə yanaşı, əyani təlim və tədris fəaliyyətlərinə yenidən başlamağı təbliğ edir. Bildirilir ki, texnologiyadan istifadə edərək təlim və tədris prosesini dəyişdirilmiş və fərdiləşdirilmiş səviyyədə həyata keçirmək mümkündür. Bu, rəqəmsal bacarıqların, əsas texnologiyaya çıxışın və etibarlı internetin mövcud olmaması səbəbindən yaranan təhsil və təlim bərabərsizliklərini aradan qaldırmağa imkan verir.

Məqalədə Avropa təhsil məkanının məqsədlərindən biri "təhsil və mədəniyyətin potensialından istifadə edərək sosial ədalətin, fəal vətəndaşlıq mövqeyinin və Avropa kimliyinin tam dolğunluğu ilə təbliğ edilməsidir". Tədqiqatda 5 illik müddətə yaradılmış Avropa Bacarıqları Gündəliyi fərdlərə və müəssisələrə yüksək səviyyədə bacarıqlara yiyələnmək üçün fəaliyyət planlarını təqdim edir. Burada, həmçinin STEM əsaslı təlim prosesindən də söhbət gedir. Bugün sürətlə dəyişən və bir-biri ilə sıx əlaqədə olan dünya insanları müxtəlif bacarıq, qabiliyyət və daim təkmilləşmə imkanına ehtiyac duyurlar. Şuranın ömürboyu təhsil üzrə əsas bacarıqlarla bağlı tövsiyəsində bildirilir ki, rəqəmsal texnologiya da daxil olmaqla müxtəlif öyrənmə metodları və imkanları inkişaf etdirilir. Bu, PTT (Peşə Təhsili və Təlimi) üzrə rəqəmsallaşdırma və qarışıq təlim prosesinin istifadəsi də daxil olmaqla, yenilənmiş Avropa İttifaqı siyasət perspektivini təşkil edir.

Şurada bildirilir ki, təhsil və təlim siyasətini müəllimlər və məktəb rəhbərləri yaradır. Şura, həmçinin valideynlərə və müəllimlərə övladlarına həmişə davam edəcək sağlam, aktiv vərdişlər formalaşdırmağa kömək etməyi tövsiyə edir. Qeyd olunur ki, təhsil ətraf mühitdən və ya şagirdlərin vəziyyətindən asılı olmayaraq daim inkişaf edən əsas amildir.

Məqalədən aydın olur ki, qarışıq öyrənmədə rəqəmsal texnologiya həm əyani, həm də distant öyrənməni dəstəkləyə bilər. Bunun əsas məqsədi bir çox sahədən mütəxəssisləri bir araya gətirərək, ictimaiyyəti uşaq və yeniyetmələrin inkişafına cəlb etməkdir.



Məqalədə, həmçinin dövlət departamentinin məsləhətləri öz əksini tapır. Şuranın fəaliyyəti pandemiyanın şagirdlərə, müəllimlərə və təhsil sektorundakı digər nümayəndələrə təsirinə yönəlib. Məktəblərin qismən bağlanması və əyani təhsil prosesinin azaldılması uşaqlara kömək etməyin əsas yoludur. Bu, şagirdlərin və onların ailələrinin sağlamlığında mühüm rol oynamaqla yanaşı, onları rəqəmsal bacarıqları öyrənməyə həvəsləndirir. Şura, həmçinin müəllim və təlimçilərə onlayn və əyani pedaqoji modullar və resurslar təklif edir. Bu isə stresi, yorğunluğu azaltmaq üçün müəllimlərin, məktəb rəhbərlərinin sağlamlığını, iş və şəxsi həyat balansını təmin etmələrinə kömək edir.

Şura, həmçinin müəllimlərin, şagirdlərin sağlamlıqlarına və təhsil prosesinə hazırlaşmalarına kömək etməyə çalışır. Qarışıq təlim variantları fəaliyyətə yeni başlamış müəllimlərə tədris prosesinin çətinliklərinə alışmaqda yardımcı olur. Həmçinin formativ və summativ qiymətləndirmələr də müzakirə olunur. Təhsilə və təlim prosesinə kömək etmək üçün rəqəmsal texnologiyalardan istifadə də tövsiyə edilir. Nəhayət, bu, uzunmüddətli reabilitasiyaya kömək etməyə və onun təkamül qabiliyyətini gücləndirməyə çalışır. Məktəblər və distant təhsil üçün yüksək sürətli internetə sərmayə qoymaq buna kömək edə bilər. Bu, müəllimlərə, şagirdlərə, valideynlərə, ictimaiyyətin digər üzvlərinə ünsiyyət və şəbəkə qurmağa kömək edər. Onlar gələcəkdə təhsil ekosisteminə təsir edən siyasi dəyişikliklər barədə məlumat əldə etmək üçün layihələri araşdıracaqlar. Son olaraq qeyd olunur ki, avropalı uşaqların təminatının həyata keçirilməsi üçün bütün milli fəaliyyət planlarına qarışıq təlim fəaliyyətləri də daxil edilməlidir.



*Mənbə: Council of the European Union. (2021, November 29). 52021dc0455. EUR-Lex — Access to European Union law — choose your language.*
*https://eur-lex.europa.eu/eli/reg/2021/785/oj*

# Avropa Təhsil Fondu tərəfindən peşə təhsili müəssisələrində çalışan rəhbər və pedaqoji işçilərlə keçirilmiş sorğunun nəticələri

Avropa Təhsil Fondu tərəfindən 2018-2019-cu illərdə Avropa İttifaqını əhatə edən ölkələrin (Kosova, Türkiyə, Albaniya, Monteneqro, Tunis, Əlcəzair, Serbiya və Belarusya) peşə təhsili müəssisələrində çalışan rəhbər və pedaqoji işçilərin davamlı peşəkar inkişafı vəziyyətini araşdırmaq və müqayisə etmək üçün sorğu keçirilmişdir. Məqalədə həmin sorğunun nəticələrindən bəhs olunur. Burada xüsusi olaraq vurğulanır ki, davamlı peşəkar inkişafı təmin etmək üçün universitetlər ilk növbədə ilkin peşə təhsili üzrə müəllim hazırlığının tədris proqramını təklif etməlidirlər. Başqa sözlə, universitetlər metodik və pedaqoji hazırlığın əsası kimi fəaliyyət göstərməlidir. Lakin sorğuda iştirak edən digər ölkələrdən fərqli olaraq Albaniya və Monteneqroda peşə müəllimliyi ixtisası üzrə təhsil alan tələbələrə ilkin peşə hazırlığı təhsili verilmir. Bu ölkələrin milli hesabatlarında onların universitetlərində davamlı peşəkar inkişafa az və ya heç bir töhfə verilmədiyi qeyd olunur. Bundan əlavə, hesabatda göstərilir ki, tərtib edilmiş proqramların səmərəli olması üçün qərarların qəbulu bütün maraqlı tərəfləri cəlb etməlidir.

Qeyd etmək lazımdır ki, Albaniya, Monteneqro və Türkiyə proqramların hazırlanmasına bütün maraqlı tərəfləri cəlb etdikləri üçün yaxşı nəticələr əldə ediblər. Statistik nəticələr göstərir ki, bu ölkələrdən fərqli olaraq Tunis və Əlcəzair maraqlı tərəflərin fikir və rəylərini nəzərə almadığından aydın, səmərəli, əlverişli məqsədlər və proqramlar müəyyən edə bilməyiblər.

Hesabatda həmçinin davamlı peşəkar inkişafın tərkib hissəsi kimi pedaqoji fəaliyyətə yeni başlayan müəllimlər üçün induksiyanın (uyğunlaşma) əhəmiyyətli olduğu xüsusi vurğulanır. Onlara biliklər əldə etmək üçün təcrübəli müəllimlərin peşəkarlığından faydalanmağın olduqca əlverişli olduğu qeyd edilir. Hesabatda iştirak edən bütün ölkələr üzrə karyeralarına yeni başlayan müəllimlərin 73%-i induksiya (ÜWlaşma) proqramı aldıqlarını bildirmişlər. Lakin sorğu nəticələri göstərib ki, yalnız Albaniyada yeni pedaqoji fəaliyyətə başlayan müəllimlər rəsmi induksiya proqramından yararlana bilməyiblər.



Bundan əlavə, müəllimlərlə yanaşı peşə təhsili müəssisələrinin rəhbərləri də tədqiqata cəlb olunmuşlar. Hesabatdan aydın olur ki, tədqiqata cəlb olunan ölkələrdə kişilər qadınlara nisbətən daha çox rəhbər vəzifələrdə çalışırlar. Bunun əsas səbəbi kimi bəzi məhdudiyyətlərin tətbiq olunması göstərilir. Belə ki, kişilərin qadınlara nisbətən vəzifə tutmaq üçün kifayət qədər təcrübəli olması qadınların qarşılaşdığı məhdudiyyətlərdəndir. Bundan əlavə, statistik göstəricilərdən aydın olur ki, peşə təhsili müəssisələrində çalışan rəhbər işçlərin 51%-i fəal tədrislə məşğul olduğu halda, 47%-i yalnız rəhbər vəzifəni icra edir.

Bundan əlavə, statistik göstəricilərdə Albaniya, Əlcəzair, Moldova, Tunis və Belarusiyada 60% peşə təhsili müəssisələrində keyfiyyətli tədrisə mane olan əsas səbəb ixtisaslı və təcrübəli müəllimlərin çox az olması qeyd olunmuşdur.

Eyni zamanda, tədqiqatda müəssisələrin əksəriyyətində tələbələrin, müəllimlərin və valideynlərin idarəetmədə rolu araşdırılıb. Lakin tədqiqata cəlb olunan bütün ölkələrdə nəticələr eyni olmamışdır. Belə ki, tədqiqata cəlb olunan Tunisdə demək olar ki, tələbələrin idarəetmədə fəal iştirakı təmin olunmayıb. Bundan əlavə, həm Əlcəzairdə, həm də Tunisdə valideynlər idarəetmədə tam təmsil olunmayıblar.

Bununla belə hesabatda peşə təhsili müəssisələrinin rəhbərlərinin qərarlarına və onların muxtariyyətlərinə hakimiyyətin təsiri olduğu bildirilmişdir. Buna görə də, qeyd olunan ölkələrin bəzilərində (Türkiyə, Kosovo, Tunis) idarəetmə qərarlarının qəbulu zamanı peşə təhsili müəssisələrinin hakimiyyətin təsiri nəticəsində tələbə, müəllim və valideynlərin rolu qiymətləndirilməmişdir. Bu da, sorğu zamanı peşə təhsili müəssisələrinin idarə olunması ilə bağlı dəqiq nəticələrin əldə olunmamasına gətirib çıxarmışdır. Bunun nəticəsində, tədqiqatda səmərəli, yüksək məlumatlı və həssas qərarlar üçün rəhbərlərin səlahiyyətlərinin artırılmasına ehtiyac olduğu qeyd olunur.



Tədqiqatda səriştəlilik, məsuliyyət, liderliyin əlverişli və səmərəli idarəçiliyin yaradılmasınında mühüm əhəmiyyət kəsb etdiyi müəyyən edilib.

Bununla yanaşı, peşə təhsili müəssisələrində çalışan müəllimlərin pedaqoji fəaliyyəti sinif şəraitində araşdırılmışdır. Tədqiqat nəticəsində məlum olub ki, yuxarıda adı çəkilən 9 ölkədə müəllimlərin əksəriyyəti tələbələrdə yaddasaxlama və qavrama qabiliyyətini artırmaq üçün həm ənənəvi, həm də müasir pedaqoji yanaşmalardan istifadə edir. Bu da, tələbələrdə nəzəri bilikləri təcrübədə və real həyatda problemlərin həlli prosesində tətbiq etməyə imkan verir. Bundan əlavə internet, proqram təminatı və texniki təchizat kimi çatışmazlıqlar müəllimlərin sinif şəraitində rəqəmsal texnologiyanı tətbiq etməsinə və istifadəsinə mane olduğu da bildirilir.



Tədqiqatda iştirakçı ölkələrin peşə təhsili müəssisələrində çalışan rəhbər və pedaqoji işçiləri davamlı peşəkar inkişaf (DPİ) təlimlərinə təşviq etmək üçün çox səy göstərdikləri müəyyən olunmuşdur. Burada milli və regional hakimiyyət orqanlarının ümumi qərarlara cavabdeh olduğu, lakin işəgötürənlərin və müəllimlərin isə bu prosesə cəlb olunmadığı bildirilir. Əlavə olaraq sorğuda müəyyən edildi ki, peşə təhsili müəssislərində çalışan müəllimlər ilə müqayisədə rəhbər işçilər davamlı peşəkar inkişaf təlimlərində daha çox iştirak ediblər. Məsələn, statistik nəticələrə əsasən Moldova, Albaniya, Monteneqro və Belarusiyada müəssisə rəhbərlərinin 60%-dən çoxunun davamlı peşəkar inkişaf (DPİ) təlimi aldıqları qeyd olunur. Bunun əksinə müəyyən edilmişdir ki, qeyd olunmuş ölkələrdə hələ də müəllimlərə davamlı peşəkar inkişaf (DPİ) təlimində mütəmadi şəkildə iştirak üçün dəstək verilmir və eyni zamanda təlimin həyata keçirilməsi üçün kifayət qədər maliyyə vəsaiti ayrılmır.

Tədqiqatın nəticəsi göstərir ki, davamlı peşəkar inkişaf (DPİ) təlimlərinin əksəriyyəti kurikulumda və təlimdə olan boşluqları əhatə etmək əvəzinə, milli ehtiyaclara yönəldiyindən keyfiyyət aşağı düşmüşdür.



Tədqiqatda sorğu nəticələrinə əsaslanaraq, ölkələrin davamlı peşəkar inkişafı daha yaxşı təşkil etməsi üçün bir sıra tövsiyələr təqdim edilir. Məsələn, tədqiqatda tövsiyə edilmişdir ki, peşə təhsili müəssisələrində çalışan müəllimlər pedaqoji təlimlərdə və davamlı peşəkar inkişaf (DPİ) proqramlarının təkmilləşdirilməsində fəal iştirak etməlidirlər. Başqa sözlə, sorğuda bütün peşə təhsili müəssisələrində çalışan müəllimlərin öz vəzifələrini səmərəli şəkildə yerinə yetirmələri və daim təkmilləşən təcrübə ilə tanış olmaları üçün onların davamlı peşəkar inkişaf təlimlərində iştirakı tələb olunur. Bütün peşə təhsili müəssislərində çalışan müəllimlərin ilkin pedaqoji hazırlıq keçməsi və onların pedaqoji bacarıqlarının yeni tələbatlara, tədris metodlarına və texnologiyalarına uyğun olması təmin olunmalıdır. Peşə təhsili müəssislərində çalışan müəllimlər üçün davamlı peşəkar inkişaf (DPİ) real minimum tələblər (günlər və ya saatlar baxımından) təyin edilməli və əlavə olaraq, ölçülə bilən qiymətləndirmə meyarları müəyyən olunmalıdır. Peşə təhsilini mümkün qədər inkişaf etdirmək məqsədi ilə öyrənmə mühitinə və texnologiyasına (o cümlədən təhsil texnologiyasına) investisiya qoyulması məqsədəuyğun hesab olunur. Son olaraq, hesabatda davamlı peşəkar inkişaf (DPİ) üçün fəaliyyət planı, müvafiq resurslar və şəffaf monitorinq prosesinin olması vurğulanmışdır.



*Mənbə: J. (2021). Listening to Vocational Teachers and Principals: Results of the ETF's International Survey 2018. European Training Foundation.*
https://www.etf.europa.eu/en/publications-and-resources/publications/listening-vocational-teachers-and-principals-results-etfs

# Valideynlərin qiymətləndirmə haqqında təəssüratları: Finlandiyanın əsas təhsil sistemindən əldə edilən konseptual fəaliyyət və nəticələr

Qiymətləndirmə ilə bağlı Juuso Henrik Nieminen, Paivi Atjonen və Ana Remesal tərəfindən ***"Valideynlərin qiymətləndirmə haqqında təəssüratları: Finlandiyanın əsas təhsilindən əldə edilən konseptual fəaliyyət və nəticələr"*** adlı tədqiqat aparılmışdır. Tədqiqatda Finlandiyanın əsas təhsil səviyyəsi üzrə övladları 1-9-cu sinifdə təhsil alan 622 nəfər valideyinin qiymətləndirmə ilə bağlı fikirləri araşdırılıb. İddia olunur ki, təlim prosesində xüsusilə valideynlər həlledici rol oynadıqları üçün təhsilin qiymətləndirilməsi ilə bağlı onların fikirləri böyük əhəmiyyət kəsb edir. Məsələn, valideynlər müəllimlərə imtahanlar, şagirdyönümlü qiymətləndirmə qaydaları və rəqəmsal məlumatların əsaslı şəkildə yenidən qurulması kimi müxtəlif qiymətləndirmə strategiyalarını qəbul etmələri üçün təsir göstərə bilər. Əlavə olaraq, valideynlər müxtəlif qiymətləndirmə üsullarında mövcud olan çatışmazlıqlarla bağlı şagirdlərə təlimat verə bilərlər. Məqalədə bildirilir ki, valideynlərin müəllimlər kimi formal pedaqoji səlahiyyəti olmadığından təhsil prosesinin qiymətləndirilməsi ilə bağlı məsələlərdə fəal rol oynaya bilmirlər. Beləliklə, onların qiymətləndirmə prosesi ilə bağlı şəxsi fikirləri məhdudlaşır. Buna baxmayaraq, bir çox cəhətdən valideynlər övladlarının təhsilində mütəxəssis rolunu oynayırlar, çünki onlar şagirdləri müəllimlərlə müqayisədə daha yaxşı başa düşürlər. Bu səbəblərə görə hesab edilir ki, təhsil müəssisələri, müəllimlər və valideynlər arasında dayanıqlı əlaqənin gücləndirilməsi valideynlərin təhsilin qiymətləndirilməsi ilə bağlı fikirlərini dəyərləndirmək baxımından çox əhəmiyyətlidir.





Buna görə də iddia edilir ki, tərəflər arasında qarşılıqlı ünsiyyətin qurulması səmərəli valideyn-müəllim əməkdaşlığına nail olmaq üçün vacib əhəmiyyət daşıyır. Müvafiq olaraq, qiymətləndirmə prosesində davamlı əlaqələrin yaradılması yalnız bir tərəfə deyil, hər iki tərəfə mənfəət gətirməlidir. Yekun qiymətləndirmə qərarlarını müəllimlər müəyyən etsələr də, valideynlərin qiymətləndirmə üsulları ilə bağlı fikirlərini bildirmələri məqsədilə danışıq və məsləhətləşmələr üçün müvafiq məkan yaradılmalıdır.

Əlavə olaraq, şagirdlərin təlim göstəricilərini yüksəltməsi üçün onlara daim yaxın olan valideynlər və müəllimlərin fəaliyyətinə xüsusi diqqət yetirilməlidir. Bunun səbəbi ondan ibarətdir ki, belə yetkin şəxslər səmərəli öyrənmə və qiymətləndirmə prosesləri üçün zəruri olan əlverişli mühitin və resursların yaradılmasına cavabdeh olan əsas nümayəndələrdir. Bundan əlavə, iddia edilir ki, məktəbin təşəbbüsü sayəsində şagirdlərin ailələri ilə əməkdaşlıq təlim prosesində əsas maraqlı tərəflər arasında səmərəli tərəfdaşlıq əlaqələrinin qurulmasında mühüm əhəmiyyət kəsb edir. Belə əlaqələr vasitəsilə həm müəllimlər, həm də valideynlər vahid təhsil prosesinin təşviqi istiqamətində bir-birilərinin fəaliyyətlərindən xəbərdar olurlar.
Tədqiqatda bildirilir ki, valideynlər qiymətləndirmə prosesinə daha çox erudisiya (dərin biliklər) üçün qiymətləndirmə ideyasını dəstəkləyən təlimat paradiqması vasitəsi kimi baxırlar. Belə paradiqma ailə və təhsil müəssisələri arasında təhsil sahəsində əməkdaşlığın inkişafı üçün zəmin yaradır. Araşdırma nəticələri göstərir ki, Finlandiya kimi qiymətləndirmə baxımından aşağı riskli kontekstdə valideynlər heç vaxt rəqəmsal məlumatları yüksək səviyyədə qiymətləndirə və ya qiymətləndirmə innovasiyalarına təsir göstərə bilməzlər. Bundan əlavə, bu nəticə həm qiymətləndirmə prosesini, həm də məktəbin ümumi intellektual fəaliyyətlərini təcəssüm etdirir. Beləliklə, valideynlərin təhsilin qiymətləndirilməsi ilə bağlı fikirlərinin sosial-mədəni və tarixi əsasları geniş şəkildə işlənib hazırlanır.

Tədqiqatdan belə qənaətə gəlinir ki, qiymətləndirmə strategiyası və prosedurları ilə bağlı rəylər əsasən qiymətləndirmə prosesinin pedaqoji ideyalarına əsaslanır. Bununla yanaşı, valideynlərin qiymətləndirmə prosesinə cəlb edilməsi təlim prosesi çərçivəsində yaradılacaq yenilik, rəqəmsal qiymətləndirmə strategiyaları vasitəsilə məlumatların yayılmasını təmin edə bilər. Belə əməkdaşlığın qurulması hər bir maraqlı tərəfin fikir və ideyalarının geniş şəkildə qiymətləndirilməsini tələb edir. Bu səbəbdən valideynlərin qiymətləndirmələrlə bağlı fikirləri haqqında əlavə empirik məlumat tələb olunur.

*Mənbə:* Nieminen, J. H., Atjonen, P., & Remesal, A. (2021). Parents' beliefs about assessment: A conceptual framework and findings from Finnish Basic Education. Studies in Educational Evaluation, 71, 101097. https://doi.org/10.1016/j.stueduc.2021.101097

# Qlobal təhsil böhranının vəziyyəti: Bərpa prosesinə doğru gedən yol

Dünyanın ən böyük maliyyə və məlumat mənbələrindən biri olan Dünya Bank Qrupu (The World Bank Group) tərəfindən COVİD-19 pandemiyası zamanı təhsildə yaranmış böhranla bağlı "Qlobal təhsil böhranının vəziyyəti: Bərpa prosesinə doğru gedən yol" adlı hesabat nəşr olunmuşdur. UNICEF, UNESCO və Dünya Bankı bu hesabatı hazırlamaq üçün dünyanın müxtəlif yerlərində təhsil nazirliyi, müəllimlər, şagirdlər və hökumətlərlə birlikdə çalışmışlar. Hesabatda pandemiyanın təhsil sektorlarına ciddi şəkildə təsir göstərdiyi və ən azı 1,6 milyard şagirdin xəstəliyin qurbanına çevrildiyi qeyd olunur. Bu səbəbdən məktəblər bağlanır, distant təhsilə başlanılır və təhsilin keyfiyyəti aşağı düşür. Eyni kontekstə əsasən hesabatda qeyd olunur ki, Afrika, Asiya və Latin Amerika ölkələri təhsil infrastrukturunu gözlənilən standartlara uyğun təkmilləşdirmədikləri üçün daha çox təsirə məruz qalıb. Nəticədə, pandemiya təhsil sahəsində bərabərsizliyə səbəb olub. Çünki inkişaf etməkdə olan ölkələrdə inkişaf etmiş ölkələrdən fərqli olaraq distant təhsil prosesi üzrə peşəkar bacarıqlara malik müəllimlər kifayət qədər deyil. Hesabatda 463 milyon şagirdin distant təhsil prosesindən yararlana bilmədiyi, bundan ən çox təsirlənən isə aztəminatlı ailələrdən olan uşaqlar olduğu aşkar edilmişdir.

Hesabatda bildirilir ki, aşağı gəlirli ölkələr aşağı tariflər və ya zəif internet bağlantısı barədə müvafiq təşkilatlara məlumat vermiş və yayım mediasına keçməli olmuşlar. Lakin bu ölkələrin bəzilərində hələ də təlim prosesini təşkil etmək üçün yayım mediası əlçatmazdır. Məsələn, Mərkəzi və Qərbi Afrika ölkələrində kənd yerləri ilə şəhər yerlərini müqayisə etsək, burada əhəmiyyətli dərəcədə fərqlərin olduğunu müşahidə edə bilərik. Çünki kənd yerlərində yalnız 26 ailədə, şəhərdə isə sakinlərin 73%-də yayım mediasına əlçatanlıq mövcuddur. Cənubi Asiya ölkələrində isə 50% ailədə yayım mediası var.

Elektrik enerjisinə keçid distant təhsilin keyfiyyətini müəyyən edən başqa bir aspektdir. Məsələn, əksər Afrika ölkələrində elektrik enerjisi kənd yerlərinə tam şəkildə paylanmayıb. Hesabatda göstərilir ki, Səhra altı Afrika ölkələrində yalnız 47 % sakinin elektrik enerjisi təminatı var. Bu qeyri-bərabər imkan rəqəmsal öyrənmə prosesinə öz mənfi təsirini göstərir.

Təhsil fiziki sağlamlığından və statusundan asılı olmayaraq bütün insanlar üçün nəzərdə tutulub. Buna baxmayaraq, pandemiya fiziki sağlamlıq məhdudiyyəti olan şagirdlərə də dərindən təsir etmişdir. Hesabatda qeyd edilir ki, belə şagirdlər əksər hallarda təhsildən kənarda qalmış və distant təhsilə yetərincə cəlb olunmamışlar. Lakin aşağı gəlirli ölkələrin 33 %-i belə şagirdlərin təhsilə cəlb olunmasına çalışmışlar.

Hesabatda, həmçinin gender bərabərsizliyinin dünyanın əsas məsələsi olduğu və qızların təhsilə cəlb olunmaması vurğulanıb. Qeyd olunur ki, Ebola virusu kimi COVİD-19 pandemiyası da böhranlara, böyük yoxsulluğa və məktəbdən yayınmalara səbəb olmuşdur. Qızların çoxu erkən yaşında nikaha məcbur edilmişdir. Bu cür hallara aşağı gəlirli ölkələrdə COVİD-19 pandemiyası dövründə də rast gəlinib. Eyni zamanda vurğulanır ki, hal-hazırda on milyon şagird erkən nikah riski altındadır. Bu səbəbdən də valideynlər, qəyyumlar uşaqları düzgün istiqamətləndirməyə çalışmalıdırlar.

Hesabatdan belə qənaətə gəlmək olar ki, COVİD-19 pandemiyası təlim-tədris prosesinə əhəmiyyətli dərəcədə mənfi təsir göstərmişdir. Bildirilir ki, ölkələrin resursları müxtəlifdir. Bu, distant təhsil prosesində qeyri-bərabərsizliyi təhrik edərək, az inkişaf etmiş ölkələrdən olan şagirdləri təhsildən geri qoyur.

Məktəblər yenidən açıldıqda müvafiq qurumlar onları itirilmiş vaxtı kompensasiya etmək üçün cəld və sürətli şəkildə hərəkət etməyə çağırmışdır. Hesabatdan aydın olur ki, bu vəziyyətə uyğunlaşa bilməmək gələcək nəsillərə mənfi təsir edəcək. Pandemiya hətta təhsil sistemləri və kurikulumların zəifliyindən irəli gələn boşluqları göstərmişdir. Beləliklə, məktəblər, təhsil nazirlikləri təlim prosesini təkmilləşdirmək və hədəflərə nail olmaq üçün bu boşluqlardan səmərəli istifadə edə bilərlər. Məktəblər tərəfindən aparılan qiymətləndirmələr məktəblərə uzunmüddətli təkmilləşməyə, məsələn, təlim prosesinin daha yaxşı olmasına kömək etməlidir. Hesabatda qeyd olunur ki, beynəlxalq ictimaiyyət və hökumətin birlikdə əməkdaşlıq etməsi və pandemiya ərzində məktəblərdəki təlim-tədris itkilərinin bərpa edilməsi vacibdir. Bir sözlə, hesabatda COVİD-19 pandemiyasının təhsildə yaratdığı böhran geniş spektrdə araşdırılmış və gələcək nəsilləri təhlükədən qorumaq üçün Dünya Bankı, UNICEF və UNESCO üç prioriteti əsas götürmüşdür.

(1) bütün uşaqları məktəbə qaytarmaq;
(2) təlimdə geriləməni aradan qaldırmaq;
(3) müəllimlərin təkmilləşdirilməsinə dəstək olmaq.

Eyni zamanda, ölkələrin təhsildə öyrənməni sürətləndirmək üçün aşağıdakı istiqamətlər üzrə işlər aparılması tövsiyə olunur:

(1) Kurikulumun təkmilləşdirilməsi;
(2) Təhsil müddətinin artırılması;
(3) Təlimin səmərəliliyinin artırılması.

Bu kimi tövsiyələrin uğurla təmin olunması təhsildə öyrənməni sürətləndirəcək. Eləcə də dövlətlər, beynəlxalq təşkilatların dəstəyilə və qeyd olunmuş tövsiyələr nəzərə alınmaqla təhsilin əlçatan, davamlı və faydalı olmasına imkan verəcək. Məhz bununla pandemiyanın şagirdlərə, gənclərə və təhsilə vurduğu ziyanı səmərəli bir şəkildə aradan qaldırmaq mümkündür.



*Mənbə: The World Bank, UNESCO and UNICEF (2021). The State of the Global Education Crisis:*